Azərbaycan Respublikasının
Təhsil İnstitutu

**RESPUBLİKA FƏNN OLİMPİADALARI**

# Azərbaycan dili və Ədəbiyyatı – Aşağı yaş qrupu

***Şənbə, 22 aprel 2017***

**<u>1-ci sual.</u> Cümləni sintaktik təhlil qaydasına uyğun olaraq, cümlə üzvlərinin ifadə vasitələrini də göstərməklə təhlil edin.**

Qoca Məmmədhəsənin fikrinə görə, doğrudan da, öz şəxsi mənafeyini unudaraq xalq üçün yaşayanlar daima tarixin yaddaşında qalacaqlar.

**<u>2-ci sual.</u> Mətnin linqvistik təhlili.**

İNSAN QƏLBİ

Bir gün xasiyyəti çox ağır olan bir gəncin atası oğlunu yanına çağıraraq ona bir kisə mismar verir və tapşırır ki, hər dəfə kiminsə xətrinə dəyib incitdikdə bu mismarlardan birini həyətin qapısına çalsın. Birinci gün oğlan 30-a qədər mismar işlədir. Get-gedə səbirli və təmkinli olmağa çalışan gənc vurduğu mismarların sayını gündən-günə azaldır. Təmkinini qorumağın mismar vurmaqdan daha asan olduğunu görən oğlan bir neçə həftədən sonra gün ərzində bir dənə də mismar vurmadığını görüb bunu atasına deyir.

Ata bu dəfə oğluna hər dəfə yenə də təmkinini qorumağı bacardığı zaman bu mismarlardan birini çıxarmağı tapşırır. Bir neçə vaxtdan sonra qapıda mismar qalmır. Ata oğlunu həmin taxta qapıya yaxınlaşdıraraq deyir:

Oğlum sən özünü çox yaxşı aparmısan. Lakin görürsən ki qapıda nə qədər deşik qalıb. Bu deşiklər bir daha heç nə ilə örtülmüyəcək. Bax insan qəlbi də bu qapı kimidir. Hər bir deyilmiş acı söz bu qəlbi yaralayır və sən bundan sonra nə qədər də üzr istəsən könülünü alsan da bir insanın qəlbində də belə

yaralar qalır. Odur ki hər bir sözü deməzdən hər bir hərəkəti etməzdən öncə bunun kimisə yaralaya biləcəyindən ehtiyyat et.

1. Mətndə həmcins üzvləri bağlayan bağlayıcıların işləndiyi cümlələri seçib yazın və həmin cümlələrdəki baş üzvləri müəyyən edin. Eyni zamanda həmin cümlələrdəki frazeoloji birləşmələrin sinonim və antonimlərini yazın.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

2.Mətnin sonuncu abzasından məcazi mənada işlənmiş əksmənalı ifadələri müəyyənləşdirin və hər birinin mənasını şərh edərək yazın.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

3. Üçüncü abzasda buraxılmış durğu işarələrini mətndə yerinə qoymaqla bərpa edin və orfoqrafik cəhətdən səhv yazılmış sözləri müəyyən edin.

4.

| Əsərdə qaldırılan başlıca problem | Atanın problem həlli | Problemin həllinə sizin münasibətiniz |
|---|---|---|
| | | |

5.Mətnə əsasən cədvəli tamamlayın.

| Səbəb | Nəticə |
|---|---|
| Ata oğlu üçün psixoloji tərbiyə üsulundan istifadə edir | |
| Oğulun xarakteri dəyişir | |
| Ata oğluna ikinci məsləhəti verir | |
| Ata oğluna taxta qapını göstərir. | |

Azərbaycan Respublikasının
Təhsil İnstitutu

**RESPUBLİKA FƏNN OLİMPİADALARI**

**3-cü sual. Bitişdirici samitlərin işlənmə məqamları.**

**4-cü sual. Aşağıda verilmiş ədəbi nümunələrdə buraxılmış sözü yazın və parçaların aid olduğu əsərləri müəyyənləşdirin:**

Ceyrana bənzər qaçışın,
Addımla, qurban qoluna!
Tərlana bənzər uçuşun,
Əl çatmaz ipək ....... ! **Cavab**:______________________________

Çünki belə şeyi nə görmüş nə də,
Oxumuş idi bir ............ də
Öz-özünə dedi: "Arifsən əgər,
Qoy sənə bir ibrət olsun bu sirlər." **Cavab**:______________________________

Qarabağda nə day qaldı, nə dana,
Bu gün sabah hərə qaçar bir yana;
Tənbeh etmək ilə ................,
Xub saldı nizama ölkəni qoçaq. **Cavab**:______________________________

Umaq bu .... yadigarın
Ta tuta qərar, sən qal imdi! **Cavab**:______________________________

Müxtəsərin deyir Aşıq Ələsgər,
Kovxanın, .......... zatı çıxıbdı. **Cavab**:______________________________

**5-ci sual.** **Verilmiş nümunələri bədii təsvir və ifadə vasitələri baxımından misralarını da göstərməklə təhlil edin.**

*Tufanlar şahidi qayaların da,*
*Dəyişib soyuqdan, rəngi, görkəmi.*
*Əsəbi dağ çayı haray qoparır,*
*Qəfildən verilmuş dağ kəli kimi.*

*Ayrıldıq... güc gəldi bizə hücumlar,*
*Ayrıldıq, usanıb tənədən, sözdən;*
*Bizdən razı qaldı yadlar, qohumlar,*
*Biz razı qalmadıq öz-özümüzdən.*